


"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## ARƏŞ SAİ



1981-ci ildə Təbrizdə dünyaya göz açıb. İlk və orta məktəbi Təbriz şəhərində bitirdikdən sonra Təbriz Universitetinin Texnika fakültəsinə daxil olub. 2003-cü ildə Universiteti bitirib. Şairin evi Təbrizdə olsa da, iş yeri ölkənin güneyində - "Əsəluyə" neftayırma kompleksindədir. Arəş Sai təbi gələndə şeirlər yazır və elmi tədqiqatla məşğuldur. Şairin günümüzədək "Saat 25 (Şeir toplusu)" çap olunub. Çağatay ədəbiyyatı üzrə apardığı araşdırmalar ayrı-ayrı məqalələrdə öz əksini tapıb. Habelə Təbrizdə ustad Həsən Umudoğlunun "Cağatayca farsca sözlük" kitabına ön söz yazıb. "Almaniyada kitab məsələsi" məqaləsi "Heydərbaba" dərgisində, "Ədəbiyyat toplumun ortaq dili, bölünməyən torpağı" adlı məqaləsi isə "Yarpaq" dərgisində yayımlanıb. Vaqif Səmədoğlunun seçilmiş şeirlərini transliterasiya edib və bu əsərlər "Bu yolların yuxusunu kim görüb" adı ilə nəşr olunub.

*Bir işçiyəm.*
*Yaşım 34.*
*Nil dərrəsinin iniltilərini,*
*Çin duvarının uşaqlığını,*
*Yaxşıca tanıyan*
*Tarixin ilk şəhid işçisiylə yaşıd əllərimləyəm!*
*Ağrını necə yaxşı çəkməyi öyrədən*
*Bir anadan doğulmuşam.*
*Atamsa yaxşı bacarardı məzlumluq alfabesini.*
*Və hələ də gözüm*
*Məşrutəni özü ilə Tehrana aparıb*
*Nəşi ilə qayıdan, Səttarxandadır!*

*Bir işçiyəm,*
*Yaşım 34,*
*Günəşi yaxşıca yeyib, içən bir ölkədə, Əsəluyədə*
*İyicə tanıyaram dəmirin dözümünü*
*Sınmasını daha iyicəsinə*
*Doğrusu ən suçsuzlardırlar gövdəmin üyələri*
*Yaxşı bacararlar təqiyyə etməyi,*
*Günəşsə hər gün*
*Dan yarıldıqda*
*Min bir dəfə*
*Min bir Zərdüştün gövdəsində göz açar*
*Alatoran olunca*
*Batar min bir işçi*
*Min bir arzu*
*Arxiv olar min bir işçinin hekayəsi...*

## MUSTAFA ŞEYXPUR



"1982-ci ildə Miyana şəhərində anadan oldum. Orta məktəbi Miyana şəhərində oxudum, sonra Təbriz Azad Universitetində elektrik-elektronik mühəndisliyi bölümünü bitirdim. İndi isə Tehranda yaşayıram və bir Almaniya şirkətində servis mühəndisi olaraq çalışıram.

Şeir yazmağa 13-14 yaşlarımdan başladım, Güney Azərbaycanda yaşayan və yazan hər kəs kimi ilk yazılarımı təhsil aldığım dildə, yəni fars dilində yazdım. Sonralar Azərbaycan şeir və ədəbiyyatı ilə tanış olub öz dilimdə yazmağa başladım. Müxtəlif dərgilərdə və sitələrdə şeirlər və qissa notlarım yayımlandı. 2014-cü ildə "Dünya durduğum yerdə qurtarır" adlı birinci şeir kitabım Tehranda "Riva" yayın evi və "Yaşmaq" ədəbi qrupu tərəfindən çap olundu...".

### Tehran metrosu

*Metroda çiçək satıram*
*getməyə tələsən insanlar kimi yox,*
*qalmağa inanan əllərimlə*
*səni düşünürəm...*
*Nə azadlıq havası var başımda, nə inqilab*
*nə savaş həvəsi,*
*nə barış.*
*Hər şey dünən kimidir*
*hər şey sabah kimi*
*bir uşağın yuxusunda*
*burda*
*Tehran metrosunda.*

*Gün doğmadan vaqonlarda*
*duraq-duraq*
*Çiçək... çiçək... çiçək satıram.*

*Hər duraqda görünürsən*
*bir az yorğun, bir az arğın*
*qapınızda düşəcəyəm*
*İnqilabdan bir az sonra*
*Azadlığa bir az yaxın*

Esmira Fuad